# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 4** **Bakı şəhəri, 10 yanvar 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişikliklər edilməsi barədə**

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 414 nömrəli Fərmanının 1.5-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 noyabr tarixli 476 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2202 10 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2202 10 000 | – şəkər əlavələri və ya digər şirinləşdirici və ya dad-aromatik maddələr əlavə edilmiş mineral və qazlı sular da daxil olmaqla, sular: | | |
| 2202 10 000 1 | – – şəkər əlavələri və ya digər şirinləşdirici və ya dad-aromatik maddələr əlavə edilmiş mineral və qazlı sular da daxil olmaqla, sular | l | 1 litr, 0,3 ABŞ dolları |
| 2202 10 000 9 | – – şəkər əlavələri və ya digər şirinləşdirici və ya dad-aromatik maddələr əlavə edilmiş alkoqolsuz energetik içkilər | l | 1 litr, 0,3 ABŞ dolları |

1.2. 2202 99 190 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 2202 99 190 2 | – – – – – meyvə və tərəvəz şirəsi əsaslı alkoqolsuz energetik içkilər | l | 15 (15.12.2019-cu il tarixinədək 15 %, lakin 1 litri 0,7 ABŞ dollarından az olmamaq şərtilə) |

1.3. 2208 90 690 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2208 90 690 | – – – – – digər alkoqollu içkilər: | | |
| 2208 90 690 1 | – – – – – – alkoqollu energetik içkilər | l | 1 litr, 2,0 ABŞ dolları |
| 2208 90 690 9 | – – – – – – digərləri | l | 1 litr, 2,0 ABŞ dolları |

1.4. 2208 90 780 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2208 90 780 | – – – – digər alkoqollu içkilər: | | |
| 2208 90 780 1 | – – – – – alkoqollu energetik içkilər | l | 1 litr, 2,0 ABŞ dolları |
| 2208 90 780 9 | – – – – – digərləri | l | 1 litr, 2,0 ABŞ dolları |

1.5. 2402 10 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2402 10 000 | – tərkibində tütün olan siqarlar, ucları kəsilmiş siqarlar və siqarillalar: | | |
| 2402 10 000 2 | – – siqarlar, o cümlədən ucları kəsilmiş siqarlar | 1000 əd | 1000 ədəd, 0,5 ABŞ dolları |
| 2402 10 000 9 | – – siqarillalar | 1000 əd | 1000 ədəd, 0,5 ABŞ dolları |

1.6. 2402 90 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2402 90 000 | – digərləri: | | |
| 2402 90 000 2 | – – tərkibində tütün əvəzləyicisi olan siqarlar | 1000 əd | 1000 ədəd, 0,5 ABŞ dolları |
| 2402 90 000 3 | – – tərkibində tütün əvəzləyicisi olan siqarillalar | 1000 əd | 1000 ədəd, 0,5 ABŞ dolları |
| 2402 90 000 9 | – – tərkibində tütün əvəzləyicisi olan siqaretlər | 1000 əd | 1000 ədəd, 0,5 ABŞ dolları |

1.7. “2403 99 900 0” alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2403 99 900 | – – – digərləri: | | |
| 2403 99 900 1 | – – – – elektron siqaretlər üçün maye | - | 1 kq, 1 ABŞ dolları |
| 2403 99 900 9 | – – – – digərləri | - | 1 kq, 1 ABŞ dolları |

**2.** Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2019.- 11 yanvar.- S.4.